***Professor Müdafiə Cəmil oğlu Mahmudov – 75***



# GÖRKƏMLİ ALİM-PEDAQOQ, ZƏHMƏTİ İSTEDADLA QOVUŞAN MÜDAFİƏ MAHMUDOV

İyirminci yüzilliyin ortalarından başlayaraq Azərbaycan riyaziyyat elminin və riyaziyyatın tədrisi metodikası elminin bir sıra sahələri inkişaf edərək formalaşmış və elmi sistemə salınmışdır. Azərbaycanda bu elmlərin müəyyən sahələrinin inkişafında tanınmış görkəmli alim-pedaqoqlardan biri də Azərbaycan Texniki Universitetinin Texnoloji transfer şöbəsinin müdir müavini, Mühəndis riyaziyyatı kafedrasının professoru, Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü, pedaqogika üzrə elmlər doktoru, 3-cü dərəcəli "Əmək" ordenli, professor Müdafiə Cəmil oğlu Mahmudovdur.

Bioqrafik göstəriciləri cəhətdən 17 oktyabr 2020-ci ildə professor Müdafiə Mahmudovun anadan olmasının 75-ci ildönümü idi, lakin o, yubileyini nə iş yoldaşları, nə dostları, nə qohumları və nə də ailəsi ilə qeyd etmədi. Ad günü ilə maraqlananlara, təbrik edənlərə bir cavabı oldu: ad günü, yubileyi istənilən vaxt keçirmək mümkündür. İndi ölkəmizdə Vətən müharibəsi gedir, hər gün şəhid və qazilərimiz olur, onlar barədə eşidəndə, televiziya ekranlarında görəndə gözlərimdən yaş axır, mənə çox təsir edir.

Müdafiə müəllim xoşbəxt insandır, çünki o, bütün fəaliyyəti dövründə qəlbini, zəkasını, sözünü, əməlini xalqımızın və Vətən övladlarının maariflənməsinə, onların dünyagörüşünün və məntiqi təfəkkürünün inkişafına həsr edib və həsr edir. Onun xeyirxah və faydalı əməlləri gənclərə örnəkdir. O, tələbələrin ən çətin anlarında onlara mənəvi dayaq durur, problemlərinin həllində yol göstərir.

Müdafiə müəllim gənclik dövründəki tükənməz enerjisini indi də saxlayır. Xoşbəxt o adamdır ki, həyatda böyük hadisələrlə qarşılaşdıqda sağlam düşüncə ilə problemi aradan qaldırmağın yollarını tapır, özünü çaşdırmır. İnsan öz işindən zövq alırsa, onda dayanmadan onu davam etdirməlidir. Bu baxımdan professor Müdafiə Mahmudov təcrübəli, dünyagörmüş, işin əvvəlini, sonunu bilən, keçmişi, gələcəyi düşünən bir alim-pedaqoqdur. Onun mütəmadi olaraq dövlət mətbuatında dərc olunan məqalələri, təhsilimizin inkişafında rolu olan, əhəmiyyət kəsb edən monoqrafiyaları, kitabları həmişə oxucular tərəfindən dəyərləndirilib.

Müdafiə müəllim indiki AMEA-nın həqiqi üzvü F. Maksudovun və AMEA-nın müxbir üzvü M. Cavadovun rəhbərliyi ilə 1977-ci ildə "Nazik silindrdə və sonsuz layda xətti elliptik tənliklər üçün bəzi sərhəd məsələlərinin həllinin asimptotikası" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsinə layiq görülüb. 2009-cu ildə isə Azərbaycan Dövlət Pedaqoji Universitetində böyük müvəffəqiyyətlə "Ali texniki məktəblərdə riyaziyyat kursunun nəzəri və praktik istiqamətlərdə tədrisinin təkmilləşdirilməsi yolları və vasitələri" (*riyaziyyatın tədrisi meto-*

*dikası ixtisası üzrə*) mövzusunda doktorluq dissertasiyası müdafiə edərək pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsinə layiq görülüb.

Müdafiə müəllim fitri istedada, yüksək mədəniyyətə, özünə və başqalarına sağlam tələbkarlığa, möhkəm iradəyə, təvazökarlığa, sadəliyə, səmimiyyətə malik insandır. Bu, adamda qibtə oyadır. M.C. Mahmudov qazandığı uğurlara görə Naxçıvan şəhər orta məktəb müəllimlərindən Yavuz Axundova, İzzət Maksudova, Abbas Abbasova, Qadir Məmmədova, Yaqub Seyidova, Musa Axundova, Aqil Yusifzadəyə, İbrahim Mollayevə, Arif Əliyevə, Müzəffər Nəsirliyə və Ağalar Qurbanova; ADPU-nun müəllimlərindən - Bəhrəm Yusifzadəyə, Əsəd İbrahimova, Qardaşxan Orucova, Əsab Quliyeva, Əmrxan Babayevə, Maksud Cavadova, Həşim Ağayevə, Nazim Abbasova, Musa Əzimova və Hüseyn Əhmədova minnətdardır.

Allah dünyasını dəyişənlərin qəbrini nurla doldursun!

Müdafiə Mahmudov 1981-1989-cu il tarixlərində indiki AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi, 1989-2006-cı il tarixlərində Azərbaycan Texniki Universitetinin riyaziyyat kafedrasında dosent vəzifəsində işləmiş, qısa müddətdə kafedra müdirinin müavini və elmi-metodik şuranın sədri vəzifələrində çalışmışdır. Həmin illərdə o, bakalavriat təhsil pilləsi üçün 3 cildlik dərs vəsaitləri hazırlamış, Odessa, Tombov, Zəncan, Moskva və digər yerlərdə keçirilən elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

Müdafiə müəllim Moskva, Kiyev, Alma-Ata şəhərlərində tez-tez elmi məzuniyyətlərdə olur, elmi-tədqiqat işi üçün qiymətli materiallar toplayırdı. O, heç kimin köməyindən istifadə etmək istəmir, hər çətinliyə qatlaşaraq lazımlı nəticələrə nail olduqda bundan zövq alaraq yorğunluğunu unudurdu.

M.C. Mahmudov əsl türk oğlu kimi vətənini, xalqını, millətini sevir. Məhz buna görə də 2017-ci ildə onun "Zəngəzur tarixində Şıxlar: dünən və bu gün" böyük həcmli kitabı işıq üzü görmüşdür.

Müdafiə müəllim tükənməz enerjiyə malikdir. Onun dövlət mətbuatında çıxan məqalələri hamı tərəfindən sevilərək qarşılanır. 2008-ci ildə çap olunmuş "Bolonya prosesi və Azərbaycan" adlı monoqrafiyası diqqətəlayiqdir. Respublikamızda ilk dəfə Bolonya prosesinə belə əhatəli yanaşılmışdır. Hazırda həmin monoqrafiya pedaqoji ictimaiyyətin stolüstü kitabıdır.

Ali təhsildə innovasiya və modernləşməyə aid Müdafiə müəllimin məqalələri ölkəmizin təhsil sferasında işləyən həmkarları tərəfindən böyük maraqla qarşılanır.

2013-cü ildə Müdafiə müəllim elmi fəaliyyətini Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu (hazırda Təhsil İnstitutu) ilə bağladı. Müsabiqə yolu ilə institutun Ali və orta ixtisas təhsili şöbəsinə baş elmi işçi seçildi. Bir müddət sonra institutun Müəllim hazırlığı kurikulumu şöbəsinə müdir vəzifəsinə təyin edildi.

Müdafiə müəllim xeyirxah, sadə, təvazökar, yüksək insani keyfiyyətləri özündə birləşdirən bir şəxs olmaqla yanaşı, həm də alın təri ilə yaşayan əməksevər alim-müəllimdir. ARTPİ-də işlədiyi vaxtlarda onun "Təhsilin modernləşməsinin aktual problemləri" və "Dünyada təhsil sistemləri" monoqrafiyaları işıq üzü gördü.

Müəllim hazırlığı kurikulumu və Azərbaycan təhsil sistemində internaturanın tətbiqi məsələlərinə həsr olunmuş məqalələri respublikanın təhsil ocaqlarında geniş müzakirələrə səbəb oldu və bəyənildi.

Müdafiə Mahmudov Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda (hazırda ARTİ) və Azərbaycan Texniki Universitetində keçirilən beynəlxalq konfranslarda dəfələrlə bölmə sədri olmuşdur.

2017-2019-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəlsəfə, pedaqogika və psixologiya elmləri üzrə ekspert şurasının üzvü olmuşdur. Hazırda Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən doktorluq üzrə dissertasiya şurasının üzvüdür.

Müdafiə müəllimin elmi-tədqiqat işlərinin nəticələri onun 220-dən çox elmi əsərində, o cümlədən 25-dən çoxu xarici nəşrlərdə öz əksini tapmışdır. O, 15 dərs vəsaitinin, 10 monoqrafiya və AzTU üçün hazırlanmış 9 fənn proqramının müəllifidir. Onun rəhbərliyi ilə elmlər doktoru, fəlsəfə doktoru və magistr elmi dərəcəsinə malik olanlar var. Hazırda elmi məsləhətçiliyi ilə 3 nəfər elmlər doktoru proqramı, elmi rəhbərliyi 3 nəfər fəlsəfə doktoru proqramı üzrə dissertasiyası üzərində işləyir.

Elmi işlə yanaşı tədris prosesi, tələbələrlə ünsiyyət, bilik və bacarığını, tədqiqatlarının nəticələrini auditoriyada bölüşmək istəyi Müdafiə müəllimi narahat edirdi. Saathesabı, yarımştat deyil, tam ştatda universitetdə mühazirələr aparmaq arzusunda idi. Odur ki, Azərbaycan Texniki Universitetin sabiq rektoru, professor Havar Məmmədova fikrini bildirdi. Müraciəti çox səmimi qarşılandı. Rektor dedi: "Uzun müddət universitetimizin təcrübəli və nüfuzlu müəllimi olmusunuz. Sizin kimi müəllimlərə ehtiyacımız var".

2015-ci ildə Azərbaycan Texniki Universitetində tam ştatla fəaliyyətə başlayan Müdafiə müəllim, bir il sonra riyaziyyat kafedrasına müdir təyin edildi. Kafedranın işi canlandı. Audutoriyanı bacarıqla, pedaqoji ustalıqla idarə edən, müəllim-tələbə münasibətlərini yüksək səviyyədə quran, nəzəri və metodik hazırlığı ilə seçilən Müdafiə müəllim tez bir zamanda kafedra üzvlərinin, universitetin pedaqoji kollektivinin və tələbələrin hörmətini qazandı.

Ali texniki məktəblər yazdığı "Riyaziyyatın tədrisi metodikası" monoqrafiyası respublikada ilk əsər idi. Bakalavriat və magistratura pillələri üçün nəzəri və praktik istiqamətdə "Riyaziyyat" dərs vəsaitləri qələmə aldı.

Müdafiə müəllim kafedranın elmi-pedaqoji həyatında yaxından iştirak etməklə, təhsilin bakalavriat və magistratura pillələrində yüksək səviyyəli mühazirə və məşğələ dərslərini aparmaqla, öz pedaqoji ustalığını daim təkmilləşdirməklə yanaşı, mütəmadi olaraq elmi fəaliyyətlə də məşğul olur. O, Azərbaycan Respublikasının Təhsil İnstitutunda nəşr olunan "Elmi əsərlər"in redaksiya heyətinin üzvüdür.

Müdafiə Mahmudov ömür boyu müəllim titulunu şərəflə, vicdanla, namusla çiyinlərində daşıyan əməksevər bir alim-müəllimdir. Şərəfli alim-pedaqoq ömrü yaşayır. Müəllimlərin müəllimidir. Onun 2015-ci ilin oktyabrında "Müəllim hazırlığı kurikulumu" mövzusunda ATİ-da keçirilən təqdimatı respublika alim-pedaqoqları tərəfindən təqdir olunmuşdur.

Uğurlara imza atmaq üçün təkcə bilik, bacarıq kifayət deyil, həm də böyük şəxsiyyətli insan olmaq lazımdır. Ailəyə uşaqlara, insanlara, gördüyün işə, ümumiyyətlə, hər şeyə olan böyük sevgi insana ruh verir və yaşadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2020-ci il tarixli sərəncamı ilə Mahmudov Müdafiə Cəmil oğlu 3-cü dərəcəli "Əmək ordeni" ilə təltif olunmuşdur.

Əməksevərliyi, işgüzarlığı, bacarığı ilə seçilən, öz işi ilə zövq alan yorulmaz alim-pedaqoq, pedaqogika üzrə elmlər doktoru, professor Müdafiə Cəmil oğlu Mahmudovun 75 yaşı tamam oldu. Bu münasibətlə onu ürəkdən təbrik edirik, professora can sağlığı, ən xoş arzular və elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq!!!

**Akif Abbasov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim,*

**Nizami Şıxəliyev**
*Azərbaycan Texniki Universitetinin fəxri professoru, Əməkdar müəllim*